# Azərbaycanda regionların inkişafı diqqətdə saxlanılır

❐ ***Son 16 il ərzində ölkəmizdə bütün sosial-iqtisadi proqramlar uğurla həyata keçirib. Bunun sayəsində Azərbaycanın siması kökündən dəyişib. Hazırda, hətta ən ucqar bölgələr belə sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə görə paytaxt Bakıdan heç də geri qalmır.***



Respublikamızda artıq şaxələndirilən iqtisadi sistem qurulub. Bu sahədə ciddi nailiyyətlər qazanılıb. Neft sənayesi ardıcıl inkişaf edib, müasir texnologiyalarla təchiz olunan onlarca yeni sənaye müəssisəsi işə salınıb. "2015-2020-ci illər üçün Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət Proqramı" əsasında ölkədə çoxsaylı sənaye parkları və sənaye məhəllələri, texnoloji parklar yaradılıb, mövcud istehsal obyektləri genişləndirilib. İnnovasiyalı istehsal iqtisadiyyatda, o cümlədən aqrar sahədə aparıcı istiqamətə çevrilib. İxrac üçün sənaye məhsulları istehsalı yüksək sürətlə artıb.



Aqrar sektorda məhsul istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan verib. Pambıqçılıq, taxılçılıq, ipəkçilik, üzümçülük, çayçılıq, tərəvəzçilik, çəltikçilik və arıçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələri dirçəldilib. Meyvə bağlarının sahəsi xeyli genişləndirilib. Aqroparklar ölkənin landşaftını tanınmaz dərəcədə dəyişib, xarici dövlətlərin Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbatı xeyli artıb.

İnvestisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələləri Prezident İlham Əliyevin yeritdiyi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi diqqət çəkir. Dövlət başçımız hökumətin həyata keçirdiyi tədbirlərin icra prosesini daim nəzarətdə saxlayır, habelə ölkənin strateji resurslarını qlobal layihələrin reallaşdırılması istiqamətində səfərbər edir. Bu baxımdan son illərdə regional inkişaf və qeyri-neft sektorunun tərəqqisi ilə bağlı reallaşdırılan tədbirləri xüsusi vurğulamaq olar.

Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində hazırda respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına yönələn bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində insan amili– Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar da Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Burada Azərbaycan Prezidentinin respublikamızın Qərb bölgəsinə səfərindən diqqətçəkən bir məqamı vurğulamaq yerinə düşərdi. Belə ki, son illər Azərbaycanda dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük uğurlara imza atılıb. Prezidentin 2012-ci il 13 iyul tarixli fərmanı ilə yaradılan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi –"ASAN xidmət" şəffaflığın artırılması, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyaların tətbiqi ilə göstərilməsini təmin etməklə yanaşı, bütün dünyada yeni və nadir bir idarəetmə modeli kimi qəbul olunub.

Azərbaycan Prezidentinin iştirakı ilə martın 4-də Tovuzda "ASAN Həyat" kompleksinin açılışı mərasimində bu barədə ətraflı danışılıb. Bildirilib ki, bu kompleks Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçiriləcək. Kompleksdə çalışacaq əməkdaşların sayı 205, könüllülərin sayı isə 50 nəfərdir.

Dövlətimizin başçısı kompleksin açılışı mərasimindəki çıxışında da respublikamızda az bir vaxt ərzində "ASAN xidmət"in dövlət xidmətləri sahəsində yeni mədəniyyəti təqdim edən milli brendə çevrildiyini diqqətə çatdırıb: "Bu mərkəzlə tanış olarkən çox sevinirəm. Çünki bu mərkəzdə bizim siyasətimizin bir çox əlaməti öz əksini tapır. "ASAN xidmət" bizim intellektual məhsulumuzdur. Artıq 18-ci mərkəz işə düşür və mən bütün mərkəzlərin açılışında şəxsən iştirak etmişəm. Hər dəfə yeni planlar, yeni proqramlar, yeni layihələr haqqında mənə məruzə edilir, o cümlədən bu gün.





Hazırda respublikamızda qeyri-neft sektorunun inkişafı iqtisadi artımın başlıca mənbəyi kimi diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyatın tərəqqisinə və ixracın şaxələndirilməsinə yönələn tədbirlər qeyri-neft sektorunda iqtisadi artıma müsbət təsir edir. Həmin tədbirlər sırasında son illər infrastruktur layihələrinin həyata keçirilməsi mühüm önəm daşıyır.

Həmin layihələrin sırasında ötən illər ərzində əhalinin və kənd təsərrüfatının su ilə təmin olunmasına xidmət edən layihələrə də xüsusi əhəmiyyət verilib. "Su həyatdır, təmizlikdir, sağlamlıqdır, inkişafdır", – deyən Prezident İlham Əliyev iki ildən sonra ölkədə içməli təmiz su ilə təmin olunmayan bir şəhərin də qalmayacağını bəyan edib.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına başlandığı vaxtdan indiyədək kəndlərdə 1500-dən çox artezian quyusu qazılıb. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılıb. Suvarma üçün bu il 400-dən çox subartezian quyusunun qazılması nəzərdə tutulur.

Ölkənin cəmi bir neçə şəhərində içməli su və kanalizasiya layihələrinə başlanmayıb. Yəni digər şəhərlərin hamısında bu işlər tamamlanıb, yaxud davam etməkdədir. Yaxın gələcəkdə elə bir şəhərimiz olmayacaq ki, gecə-gündüz Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilməsin.

Prezident İlham Əliyevin "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksinin açılış mərasimində iştirak etməsi və buradakı çıxışı əhalinin içməli su ilə, kənd təsərrüfatının isə meliorasiya suyu ilə təmin olunmasına göstərilən diqqətin daha bir aydın təzahürüdür.

"Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksinin ərsəyə gəlməsində Şəmkirçay su anbarının müstəsna əhəmiyyəti var. Bu layihə böyük vəsait hesabına başa gəlsə də, indi insanların içməli su ilə təchizatına və təsərrüfatların suvarma problemlərinin həllinə sanballı töhfə verir. Xüsusilə quraqlıq olan zaman bu layihələrin dəyəri daha çox bilinir.

Prezident İlham Əliyev Şəmkirdəki çıxışında digər su infrastrukturu layihələrinin də önəm daşıdığını vurğulayıb: "Şəmkirçay su anbarı ilə bərabər, Taxtakörpü su anbarı da tikilib. Əgər Taxtakörpü su anbarı bir neçə il bundan əvvəl tikilməsəydi, keçən ilin yay aylarında Bakı şəhərində su qıtlığı yaranacaqdı. Çünki bizim əsas içməli mənbəyimiz olan Ceyranbatan su anbarını qidalandıran Taxtakörpü su anbarıdır. Orada sular yığılır və eyni zamanda təbii yollarla təmizlənir, sonra Ceyranbatana axıdılır. Ona görə bu böyük infrastruktur layihələrinin çox böyük əhəmiyyəti, faydası var. Bu gün biz əkin sahələrimizi genişləndiririk, insanları içməli su ilə təmin edirik".

Azərbaycan Prezidenti İlham Əliyev Ağstafa Aqrar Sənaye Kompleksinin açılışı mərasimindəki çıxışında iş yerlərinin yaradılmasında mühüm rol oynayan sahibkarlara dövlət tərəfindən göstərilən dövlət dəstəyindən danışarkən, bildirib ki, özəl sektora qayğı son nəticədə ölkəmizin inkişafına, sosial rifahın daha da yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına hesablanıb. Dövlət başçısı, eyni zamanda, yerli investorların sosial-iqtisadi sahələrə sərmayə qoyuluşunun zəruriliyinə diqqət çəkib.

Prezident İlham Əliyev daha sonra bildirib ki, sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı da bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verir.

Yeri gəlmişkən, respublikada özünüməşğulluq proqramının əhatə dairəsi 2017-ci illə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və 7267 nəfər özünüməşğulluğa cəlb edilib. 2019-cu ildə isə özünüməşğulluq proqramına cəlb olunan ailələrin sayı 10 min 352 nəfərə bərabər olub. Onlardan böyük əksəriyyəti təlimlərdə iştirak edib və biznes-planlarını müdafiə edərək aktivlərlə təmin olunub.

Özünüməşğulluq proqramında həssas əhali qruplarına üstünlük verilir. 2019-cu ildə də proqrama cəlb olunanlardan 2373 nəfəri əlilliyi olan şəxslər, 1860 nəfəri məcburi köçkünlər, 479 nəfəri ünvanlı sosial yardım alanlar, 257 nəfəri şəhid ailəsi üzvləri, 134 nəfəri isə cəzaçəkmə müəssisəsindən azad edilənlərdir.

Ötən il Məşğulluq Mərkəzləri tərəfindən ictimai işlər də daxil olmaqla 103 min nəfər işlə təmin olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən bu il işlə təmin olunanların sayının 30 faiz artırılmaqla 130 minə, peşə hazırlığına cəlb olunanların sayının 40 faizdən çox artırmaqla 5 minə çatdırılması planlaşdırılıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***